

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

18 noyabr 2021-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 44 (3557)

# TÜRK DÜNYASINDAN DÜNYAYA TÖHFƏ






Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının noyabrın 12-də İstanbulda keçirilən VIII Zirvə Görüşü mühüm hadisələrlə yadda qaldı. Şuranın adının “Türk Dövlətləri Təşkilatı”na dəyişdirilməsi, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi, “Türk dünyasına baxış - 2040” sənədinin qəbulu və digər əhəmiyyətli qərarlar qəbul olundu. VIII Zirvə Görüşünün ən mühüm hadisəsi isə Prezident İlham Əliyevin Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsiydi. Azərbaycan Prezidentinin Ali Ordenə layiq görülməsi Türk dünyası tərəfindən İlham Əliyev şəxsiyyətinə olan yüksək ehtiramın təcəssümüdür.

Dövlətimizin başçısı bu mükafata Azərbaycanın Vətən müharibəsindəki möhtəşəm qələbəsinə və türk birliyinin daha da möhkəmləndirilməsindəki səylərinə görə layiq görüldü. Vətən savaşındakı əzmkar qələbə ilə Azərbaycan 30 ilə yaxın işğal altında qalan torpaqlarını azad etməklə yanaşı, həm də BMT-nin kağız üzərində qalan qətnamələrinin icrasını, eləcə də tarixi ədaləti təmin etdi və regionda yeni siyasi-iqtisadi reallıqlar, əməkdaşlıq imkanları yaratdı.

Zəngəzurun Ermənistana verilməsi tarixi ədalətsizlik olsa da illərin “səhvini” Azərbaycanın qələbəsi düzəltməyə imkan verdi. Bu gün siyasi leksikonumuzda özünə yer edən, təkcə bölgəyə deyil, dünyaya iqtisadi töhfə vermək gücündə olan Zəngəzur dəhlizinin bərpa edilməsi nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsinin türk dövlətləri arasında əlaqələrin daha da dərinləşməsinin, eyni zamanda, bölgədə davamlı sülhə, sabitlik və əməkdaşlığa gedən yolun da önünü açdı.

Zirvə Görüşündə azad edilmiş torpaqlarda böyük quruculuq-bərpa işlərinin - körpülərin, tunellərin, yolların, dəmir yollarının, elektrik stansiyalarının, hava limanlarının inşasının davam etdirildiyini deyən ölkəmizin rəhbəri görülən önəmli infrastuktur işlərində Türkiyənin bir çox şirkətlərinin də fəal iştirak etdiyini diqqətə çatdırıb və Şərqi Zəngəzur, Qarabağ bölgələrinin layihəsində dəstək olan qardaş ölkəyə minnətdarlığını bildirib.

Zəngəzur koridorunun iqtisadi-siyasi baxımdan bütün bölgə üçün mühüm əhəmiyyət daşıdığını, türk dünyasını, Avropanı, birləşdirən bir layihə olduğunu qeyd edən Prezident İlham Əliyev Ermənistanın vəziyyətlə barışmaqdan başqa çarəsinin qalmadığını vurğulayıb.

Ancaq son günlər sərhəddə baş verən gərginlik, Ermənistan tərəfinin Şuşa, Laçın, Kəlbəcər istiqamətində hərbi təxribatlara əl atması acı məğlubiyyəti ilə barışmaq istəməyən düşmənin iç üzünü, işğalçılıq siyasətini davam etdirmək niyyətində olduğunu bir daha ortaya qoyur.

Yaranmış vəziyyətə görə bütün məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşdüyünü bildirən Müzəffər Ali Baş Komandan İlham Əliyev “Dəmir yumruğ”un yerində olduğunu revanşist ölkəyə xatırladıb.

# DAXİLİ QOŞUNLARIN BAŞ İDARƏSİNDƏ MÜŞAVİRƏ KEÇİRİLİB




Daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili Qoşunların Baş İdarəsində əməliyyat müşavirəsi keçirilib. Əvvəlcə nazir V.Eyvazovun təklifi ilə böyük zəfərə başa çatmış Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Müşavirəni açan nazir bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında başlanılan və möhtəşəm qələbə ilə yekunlaşan 44 günlük Vətən müharibəsində DİN Daxili Qoşunlarının hərbi qulluqçuları da qəhrəmancasına iştirak edərək adlarını DİN-in tarixi salnaməsinə qızıl hərflərlə yazıblar.

Nazir qeyd edib ki, bu müharibədə Qoşunların 66 hərbi qulluqçusu şəhid olub, 346 nəfəri isə yaralanıb. Göstərdikləri şücaətə görə Ali Baş Komandanın müvafiq sərəncamları ilə 4 hərbi qulluqçu “Vətən Müharibəsi Qəhrəmanı”, 985 nəfəri isə müxtəlif orden və medallarla təltif edilib. Müharibədən sonrakı ötən bir il ərzində şəhidlərimizin xatirəsi daim ehtiramla yad edilib, qazilərimiz diqqət mərkəzində saxlanılıb. Hazırda işğaldan azad olunmuş ərazilərdə polis əməkdaşları ilə birlikdə Daxili Qoşunların hərbi qulluqçuları da xidmət aparır, təhlükəsizlik tədbirlərinin təmin olunmasında fəal iştirak edirlər.

Cənab Prezidentin respublika DİN-in və onun ayrılmaz hissəsi olan Daxili Qoşunların ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizənin səmərəli təşkilində, dövlətçiliyin cinayətkar qəsdlərdən qorunmasında, insan və vətəndaş hüquq və azadlıqlarının təminində rolunu və fədakar xidmətini hər zaman yüksək qiymətləndirdiyini vurğulayan nazir, daxili işlər orqanlarının zəruri avadanlıq və texnika ilə təchizatına böyük diqqət yetirildiyini, müasir tələblərə cavab verən texniki və xüsusi vasitələrlə



təmin olunduğunu, xidmət şəraitinin ilbəil daha da yaxşılaşdığını bildirib.

Sonra daxili işlər nazirinin müavini - Daxili Qoşunların komandanı, general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Əməliyyat müşavirəsinə yekun vuran nazir V.Eyvazov ulu öndərin əsasını qoyduğu inkişaf və tərəqqi strategiyasını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurla davam və inkişaf etdirməsi nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının artdığını, beynəlxalq mövqelərinin möhkəmləndiyini bildirib, möhtərəm dövlət başçımızın ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

Hərbi qulluqçulara tapşırıq və tövsiyələrini verən nazir Vilayət Eyvazov əmin olduğunu bildirib ki, şəxsi heyət göstərilən ali diqqət və qayğıya sabitliyin, əmin-amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə öz nümunəvi xidmətləri ilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcək.













# QƏLƏBƏNİ BƏXŞ EDƏNLƏR

## Şəhidlərimizin məzarları ziyarət olunub




Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan DİN Daxili Qoşunların hərbi qulluqçularının Beyləqan, Tərtər, Bərdə, Cəbrayıl, Yevlax, Biləsuvar, Cəlilabad, Neftçala, Sabirabad, Salyan, Xaçmaz və Qazax rayonlarında anım mərasimləri keçirilib. Şəhid hərbi qulluqçular - Mikayıl Mikayılzadənin, Tural Bayramlının, Fərid Vəliyevin, Cahangir Surxayzadənin, Elvin Abbasovun, Ceyhun Rzayevin, Təhmasib Rzayevin, Seymur Həsənlinin, Orxan Mirzəyevin, Fərid Hüseynovun, Səid Cəfərovun, Şahlar Məmmədovun, İsmayıl Məmmədovun, Anar Vəlizadənin, Fərid Seyfullayevin, İsmayıl Qəsəbovun ildönümü mərasimlərində DİN-in, eləcə də Şəhər-Rayon Polis şöbələrinin şəxsi heyəti, Daxili Qoşunların hərbi qulluqçuları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Mərasimlərdə şəhidlərin məzarlarına tər gül-çiçək dəstələri düzülüb, xatirələri bir dəqiqəlik sükutla yad edilib və ruhlarına dualar oxunub.

Çıxış edənlər şəhidlərimizlə bağlı xatirələrini bölüşüb, onların şərəfli həyat və döyüş yollarından söz açıblar. Tədbir iştirakçıları Vətən savaşının dünya hərb tarixinə möhürünü vurduğunu xüsusilə vurğulayıblar. Qeyd olunub ki, Vətən uğrunda canlarından keçənlərin əziz xatirələri daim qəlblərdə yaşayacaq, onların döyüş meydanında göstərdikləri şücaət gənc nəsillər üçün örnək olacaqdır.

Övladlarının əziz xatirəsini yad etdiklərinə, onlara göstərilən diqqət və qayğıya görə şəhid ailələri ölkə, eləcə də DİN rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

# İşgüzar, səmərəli konfrans

## Polisin fəaliyyətinə COVID-19-un təsirləri müzakirə olunub

DİN-in Polis Akademiyasının nümayəndə heyəti Türkiyənin Antalya şəhərində keçirilən beynəlxalq konfransda iştirak edib. “Pandemiya dövründə polisin fəaliyyətində və təhsilində COVID-19-un təsirləri” adlı tədbir 11-14 noyabr tarixlərində Beynəlxalq Polis Akademiyaları Assosiyasiyasının (İNTERPA) 10-cu illik konfransı çərçivəsində baş tutub.

DİN-in Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanovun rəhbərlik etdiyi nümayəndə heyəti konfransda müşahidəçi qismində iştirak edib. Beynəlxalq əməkdaşlıq bölməsinin rəisi, polis polkovnik-leytenantı Elçin Orucov da nümayəndə heyətində yer alıb.

Tədbirdə İNTERPA-nın Prezidenti Türkiyə Milli Polis Akademiyasının rektoru Yılmaz Çolak açılış nitqi söyləyərək COVID-19 pandemiyası dövründə üzv



və iştirakçı ölkələr arasında polisin fəaliyyəti və təhsili üzrə məlumat mübadiləsinin aparılmasının önəmindən danışıb. Daha sonra İNTERPA-ya yeni seçilmiş təhsil qurumlarının iştirakı ilə imzalanma mərasimi keçirilib. Bununla da qurumun 59 ölkədən olan üzvlərinin sayı 79-a yüksəlib.

Konfransda 2021-ci ildə İNTERPA-nın rəhbərliyi ilə həyata keçirilmiş “Polis etikası”, “Təhsil ehtiyaclarının təhlil edilməsi”, “İctimai təhlükəsizliyin təminində böhran dönəmində idarəetmə”, “Hüquq mühafizə orqanları üçün irqi cinayətlərə qarşı mübarizə üzrə” və “İnsan haqları” üzrə təlimləri müzakirə edilib.

Azərbaycan Respublikasının DİN-in Polis Akademiyasının fəaliyyətini və imkanlarını özündə əks etdirən qısametrajlı tanıtım çarxını konfrans iştirakçıları maraqla qarşılayıblar. Təqdim olunan videomaterialın nəticəsi olaraq Tacikistan, Moldova, Özbəkistan və bir sıra digər ölkələrin nümayəndələri Polis Akademiyası ilə daha sıx əməkdaşlıq imkanlarını nəzərdən keçirəcəklərini bildiriblər.

Konfrans işgüzar və səmərəli şəkildə başa çatıb.

*"Polis"*

# SİLAH-SURSAT AŞKAR EDİLİB

**İşğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları tərəfindən silah-sursatların aşkar edilməsi məqsədi ilə profilaktiki tədbirlər davam etdirilir.**



DİN-in Mətbuat Xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Zəngilan Rayon Polis Şöbəsinin əməkdaşları Ağakişilər kəndi ərazisində düşmənin atıb qaçdığı mövqelərdən pulemyot, 3 avtomat, 89 qumbara və alışdırıcıları, 42 qumbaraatan mərmisi, 11 Qrad mərmisi, 16 daraq, 10 mindən çox müxtəlif çaplı güllə və digər döyüş sursatları aşkar ediblər.

# UZAQ, YAŞIL ADA...

## Pirallahıda gördüklərimiz və eşitdiklərimiz

**Ayrılıq bir dənizmiş, sən - uzaq, yaşıl ada... Tamam başqa ovqatı ifadə edən bu poetik misra elə bil Bakının Pirallahı rayonunun “əyninə” biçilib. Şəhərin mərkəzindən uzaq, dənizin içindəki rayonu sahilə təkcə bir körpü bağlayır. Körpüyə çatanda gözlərim yaşıllıq da axtarırdı ki, şeirdəki misrayla bənzərlik tam olsun, amma görmədim. Bəlkə də məyusluğuma təsəlli olsun deyə, düşündüm ki, yəqin adanın yaşıllığını payız əlindən alıb... müvəqqəti.**

Bizi qarşılayan **Pirallahı RPŞ-nin əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Elman Kazımov** şöbə əməkdaşlarının cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması məqsədilə əzmlə xidmət etdiklərini vurğuladı.

Onun sözlərini hesabat dövrünün statistik göstəriciləri də təsdiq edir. Bu ilin 9 ayı ərzində rayon ərazisində qeydə alınmış 53 cinayətin açılması 97,7 faiz təşkil edib. Axtarışda olan 7 nəfərin 7-i də tutularaq istintaq orqanlarına təhvil verilib. Qanunsuz dövriyyədən isə 8 kiloqramdan artıq narkotik vasitə çıxarılıb ki, onun 2 kiloqramdan çoxu heroin olub.

Xidmət zamanı həmsöhbət olduğumuz **PPXB-nin əməkdaşları - polis baş serjantları Amid Əsgərov, Ceyhun Nəcəfov və polis serjantı Pənah Həsənov** inzibati ərazidə ictimai asayişin kobud pozuntusu ilə az qarşılaşdıqlarını deyirlər. Adadakı mühafizə edilən strateji obyektlərdə, inzibati ərazidə gecə-gündüz keşik çəkən PPXB əməkdaşlarının ayıq-sayıq xidmətinin nəticəsidir ki, qorunan ərazilərdə hər hansı ciddi insident baş verməyib.

Müsahibimiz olan ada sakinləri də asayiş keşikçilərinin fəaliyyətindən məmnun qaldıqlarını, onlarla qaynayıb qarışdıqlarını, hər müraciətlərinə həssas yanaşıldığını söylədilər. Məktəbin həyətində top qovan uşaqların həmkarlarımızı görcək toplaşıb onlarla şəkil çəkdirməsi də polisə səmimi ictimai münasibəti nümayiş etdirirdi.

Ərazidəki əməkdaşların xidməti postunu yoxlayarkən qarşılaşdığımız **Pirallahı RPŞ PPXB-nin komandiri, polis mayoru Vaqif Mehdiyev** Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Sədərək rayonunda xüsusi təyinatlı dəstənin tərkibində döyüşüb, daha sonra isə Beyləqan, Füzuli, Murovdağ istiqamətində gedən döyüşlərdə vuruşub, yaralanıb. Beş il döyüşdükdən sonra daxili işlər orqanlarında xidmətə başlayıb. İki ildir komandirdi.

Deyir, hava şəraitindən asılı olmayaraq əməkdaşların bayırda xidmət etməsi çətinliyin yalnız görünən tərəfidir. Cinayətkarla birbaşa üz-üzə qalan PPX əməkdaşlarından həm də vətəndaşlarla ünsiyyət zamanı yüksək nəzakət, diqqət və qayğı tələb olunur. Bu isə böyük məsuliyyət deməkdir. DİN rəhbərliyinin vətəndaş məmnunluğunun təmin edilməsi ilə bağlı tələbləri xidmət əməkdaşlarının qarşısında əsas vəzifə kimi müəyyən edilib.

PPXB əməkdaşları kimi, sahə inspektorları da polis – vətəndaş münasibətini “inşa” edənlərdən hesab olunur. **Sahə inspektorları, polis mayoru Asim Hüseynov və polis leytenantı Bəxtiyar Əzizov** bunun səbəbini vətəndaşların istənilən mövzu ilə bağlı “uçastkovı”ya üz tutması ilə izah edirlər. “Biz sakinlərin polisə güvəndiyini gündəlik xidmətimizdə hiss edirik, görürük”,- deyən B.Əzizovun sözlərini həmkarı A.Hüseynov da təsdiqləyir: “Hətta, polisə aid olmayan məsələlərin həlli ilə bağlı bizdən kömək istəyirlər.







Onlar polisi özlərinə dayaq bilirlər. Övladı dərsdən yayınan valideynlər belə profilaktik söhbət aparmaları üçün sahə inspektorlarına müraciət edirlər”.

Qayıdarkən artıq Pirallahının “rəngi” barədə fikrim qətiləşmişdi. Axı təhlükəsizliyi təmin olunmuş ərazi dünyada şərti olaraq yaşıl rənglə göstərilir, adətən. Pirallahıda, dənizin ana torpaqdan ayrı saldığı bu uzaq, yaşıl adada da Azərbaycan Polisi əmin-aman həyatı, təhlükəsizliyi tam təmin edib.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# "Zəfər" qalib oldu

## Polis Akademiyasında bilik viktorinası keçirilib



*DİN-in Polis Akademiyasında "Zəfər Günü", "Dövlət Bayrağı Günü" və "Konstitusiya Günü"nə həsr olunmuş viktorina keçirilib.*

Tədbiri giriş nitqi ilə açan **Akademiyanın rəisi, polis polkovniki Canpolad Daanov** əlamətdar günlər münasibətilə şəxsi heyəti təbrik edərək komandalara uğurlar arzulayıb. O, bu kimi müsabiqələrin dinləyicilərin hüquqi biliklərinin artırılmasında, təkmilləşdirilməsində, eləcə də inkişafında mühüm rol oynadığını diqqətə çatdıraraq gələcəkdə bilik yarışlarının daha da genişləndirilməsini tövsiyə edib.

Qiyabi fakültənin II kursunun (ali təhsilli) dinləyicilərindən ibarət "Zəfər", "Vətən" və "Qarabağ" komandaları üç mərhələdə yarışıb. Akademiyanın professor-müəllimlərindən ibarət münsiflər heyəti komandalara birinci mərhələdə test formasında, ikinci mərhələdə açıq, final mərhələsində isə hər birinə ayrı-ayrılıqda suallar təqdim edib.

Sualları daha tez və dolğun cavablandıran "Zəfər" komandası müsabiqənin qalibi elan olunub.

Yeri gəlmişkən, viktorinanın maraqlı və yaddaqalan olması üçün mərhələlərarası fasilələrdə auditoriyaya da suallar ünvanlanıb və düzgün cavab verən dinləyicilər mükafatlandırılıb.

*Teymur Əlizadə,*
*polis mayoru*



# GORUS-QAFAN YOLUNDA POLİS POSTU

İşğaldan azad olunmuş ərazilərdə daxili işlər orqanlarının əməkdaşları ayıq-sayıq xidmət aparırlar. Təhlükəsizliyin təmini, sabitliyin və asayişin qorunması üçün bütün çətinliklərə sinə gərən həmkarlarımızı tarixi torpaqlarımızda görəv başında görməyin qüruru sözlə ifadə olunmaz. Düzdür, düşmən və onun havadarları sərhədlərin yenidən müəyyənləşdirilməsi adı altında öz arzularını gerçəkləşdirmək istəyirlər. Ancaq bu elə onların arzusu olaraq qalacaq. Çünki tarixi ədaləti bərpa edən Azərbaycan dövləti və Azərbaycan xalqı 44 günlük savaşda qazandığı Zəfərlə XX əsrdəki bütün məğlubiyyətlərinin üstündən xətt çəkdi.



Budur, Azərbaycan Polisi Gorus-Qafan yolunda xidmət aparır. Postumuzda üçrəngli bayrağımız dalğalanır. Düşmənin qorxulu yuxusu çin olub. Biz tarixi torpaqlarımıza və hədəflərimizə addımbaaddım yaxınlaşırıq.

"Qarabağ Azərbaycandır!" şüarı düşmənin canına elə bir qorxu salıb ki, o, bu torpaqlarda çox qala bilməyəciyini yaxşı bilir. Müqavimət göstərsə belə oxun yaydan çıxdığının fərqindədir.

*T.Hafiz*

# Vətənə xidmət eşqi

***Daxili işlər orqanlarında xidmətə qəbul zamanı fiziki göstəricilərlə yanaşı dərin savada, geniş dünyagörüşünə malik gənclərə üstünlük verilməsi polisin gələcəyini etibarlı əllərə təslim etmək niyyətindən, gənclərin fəaliyyəti üçün həyata keçirilən düşünülmüş dövlət siyasətindən qaynaqlanır.***

Əlahiddə Çevik Polis Alayının polis nəfəri, polis serjantı Kamil Abdullayev həmin o gənc əməkdaşlardandır ki, sabahın məsuliyyətini öz üzərinə götürməyə, gəncliyin, gələcəyin avanqardında yer almağa qadirdir. Onu da bir çoxları kimi sıralarımıza biliyi, intellekti ilə çulğalanmış vətənpərvərlik duyğuları, dövlətə, xalqa xidmət etmək sevdası gətirib. Polisin ölkəmizin ən çətin tarixi anlarında, taleyüklü məqamlarda sərgilədiyi fədakarlıqların bir xilaskarlıq mahiyyəti daşıdığını deyən Kamil bunun ulu öndər Heydər Əliyevin "Polis dövlətin əsas sütunlarından, dayaqlarından biridir" kəlamı ilə də təsdiq edildiyini deyir.



***O, Bakı Mühəndislik Universitetinin Tərcümə ixtisasının bakalavr mərhələsini bitirəndən sonra Amerikanin Vaşinqton ştatında, Sietl şəhərində "Northeastern" Universitetinin menecment fakültəsinin magistr dərəcəsinə yiyələnib.*** 2019-cu ildə təhsilini başa vurduqdan sonra Vətənə qayıdıb və polis əməkdaşı kimi ölkəsinə daha faydalı ola biləcəyi düşüncəsiylə daxili işlər orqanlarında xidmətə qəbul olub. Hazırda DİN-in Polis Akademiyasında təhsil alır.

Akademiyada təhsildən söz düşmüşkən qeyd edək ki, bugünlərdə bu təhsil ocağında "Zəfər günü", "Dövlət Bayrağı" və "Konstitusiya Günü"nə həsr olunmuş viktorinada K.Abdullayevin də təmsil olunduğu "Zəfər" komandası yüksək bal toplayaraq yarışmanın qalibi elan olunub. O, sahib olduğu dünyagörüşü, savadı ilə komandasının fərqlənməsinə kömək edib və Akademiya rəisinin imzası ilə təsdiq edilən diploma təltif olunub.

Xatırladaq ki, ölkəmizdə keçirilən beynəlxalq kütləvi idman tədbirlərində polis əməkdaşlarının hazırlıqlı olması, gələn qonaqlarla ingilis dilində sərbəst ünsiyyət qurma bacarıqları xarici medianın da diqqətindən yayınmamışdı. ***Son belə mötəbər tədbir zamanı - "Formula 1" yarışları və AVRO-2020 futbol çempionatında təhlükəsizliyin təmin edilməsinə cəlb edilmiş Əlahiddə Çevik Polis Alayının əməkdaşları da turistlərlə ingilis dilində ünsiyyət qurmaqda çətinlik çəkmirdi. Onların dil bacarıqlarının artırılması məhz polis serjantı Kamil Abdullayevin əməyinin nəticəsi idi.*** O, Polis Alayında yarışlar öncəsi xarici vətəndaşlarla rahat ünsiyyət üçün təşkil edilən kurslarda həmkarlarına, xidmət yoldaşlarına ingilis dili dərsləri, seminarlar keçib.

Öz uğur hekayəsini hər kəs özü yazır, şübhəsiz ki. Kamil Abdullayev də uğurlu başlanğıcla Azərbaycan Polisinin dövlətə, dövlətçiliyimizə həsr olunan fəaliyyətinə töhfə verməyə çalışır...

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Monitorinqlər nəticəsində...

10-16 noyabr tarixlərində Daxili İşlər Nazirliyinin, Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 557 toy şənliyinin monitorinqini həyata keçirib.

Monitorinqlər 477 şadlıq sarayında, 80 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib.

Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsində xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə:

- 94 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitari-ya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimə olunub;

- 1 faktla bağlı Cinayət Məcəlləsinin 139-1.1-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb;



- 2300 nəfər "COVID-19" pasportu olmadığına görə şənliyə buraxılmayıb.

***Astara Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə Mədəniyyət Mərkəzində Pedaqoji Kollecin tələbələri ilə "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib.***





# Maarifləndirməklə də mübarizə aparırıq

Görüşdə çıxış edən **RPŞ-nin rəisi, polis polkovniki Azər Cəfərov** narkomaniyanın səbəb olduğu ağır fəsadlardan, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı polis orqanları tərəfindən aparılan qətiyyətli mübarizədən, eləcə də əldə olunan nəticələrdən danışıb. Qeyd edilib ki, yeniyetmə və gənclərin bu sahədə daha ətraflı bilgilərə malik olması, kənar təsirlərə düşməməsi, sağlam həyat tərzi keçirməsi baxımından maarifləndirmə tədbirləri əhəmiyyətli rol oynayır.

Narkomaniyaya qarşı mübarizə tədbirləri çərçivəsində digər maarifləndirici görüş Qobustan rayonunda keçirilib.

Rayon Polis və Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə şəhər 3 saylı tam orta məktəbdə baş tutan tədbirdə **RPŞ-nin rəisi, polis polkovniki Etibar Babayev** narkomaniyanın genefondumuz üçün ən böyük təhlükə olduğunu, həyat və sağlamlığa ciddi təhlükə yaratdığını, cinayətkarlığın artmasına təkan verdiyini məktəblilərin diqqətinə çatdırıb. O, bu kimi hallara qarşı birgə mübarizənin effektivliyindən də bəhs edib.

**Yevlaxda da Rayon Polis Şöbəsinin** təşkilatçılığı ilə rayonun 2 saylı tam orta məktəbində "Narkomaniya bəşəriyyət üçün böyük təhlükədir!" mövzusunda keçirilən görüşdə məktəbin pedaqoji heyəti və şagirdlər iştirak ediblər.

Narkotik asılılığının cinayət törətməyə əsas səbəb olduğunu şagirdlərə izah edən **RPŞ-nin rəisi, polis polkovniki Elnur Mehdiyev** ölkəmizdə, o cümlədən rayon ərazisində narkotiklərin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin aşkar edilməsi istiqamətində aparılan genişmiqyaslı və qətiyyətli mübarizə tədbirlərinin nəticələri barədə məlumat verib. Həmçinin, narkotacirlərə və narkotik istifadəçilərinə qarşı hüquq mühafizə orqanlarının barışmaz mövqe sərgilədiyi də dinləyicilərin diqqətinə çatdırılıb.

Daha bir maarifləndirmə tədbiri Sabirabad rayonunda keçirilib. Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə M.Ə.Sabir adına 1 saylı tam orta məktəbdə "Narkomaniyaya yox deyək!" mövzusunda çıxış edən **RPŞ-nin rəisi, polis polkovniki Namiq Camalov** narkotik vasitələrin cəmiyyət üçün yaratdığı problemlərdən danışıb. Fiziki və mənəvi sağlamlığa ağır zərbə vuran narkomaniyanın mənfi nəticələrindən söz açan şöbə rəisi, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxsləri gördükdə və ya ifşa etdikdə mütləq valideynlərinə, eyni zamanda, polisə məlumat verməlĕrini məsləhət görüb.





Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, çıxış edənlər gəncləri zərərli vərdişlərdən uzaq durmağa, daha çox faydalı işlərlə məşğul olmağa çağırıb, dəyərli tövsiyələr veriblər.

# QALİBLƏR SIRASINDA...



**Bugünlərdə Monteneqroda yeniyetmə və gənclər arasında Kikboksingin K-1 növü üzrə keçirilən Avropa çempionatı başa çatıb.**

Yeniyetmələr arasında dünya və Avropa çempionu adını qazanan Emili Rzayeva DİN İdman Cəmiyyətinin yetirməsidir. O, 65+ kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gəlsə də, finalda hakimlərin ədalətsizliyi ilə qarşılaşıb.

Belə ki, final döyüşündə onun Serbiyalı idmançıya vurduğu zərbələr, eyni zamanda, çəkidə qarşı tərəfin 15 kiloqram artıq olması nəzərə alınmayıb.

E.Rzayevanın ilk rəqibi Rusiya idmançısı olub. Onun üzərində inamlı qələbə qazanan idmançımızın ukraynalı rəqibi də məğlubiyyətlə barışıb. Moldova idmançısı da Emilinin qarşısında tab gətirməyib. Beləliklə, bütün rəqiblərini məğlub edən idmançımız K-1 turnirinin gümüş mükafatçısı olub.

Qeyd edək ki, Emili Rzayevanı bu yarışa boks üzrə Zaur Həbibullayev, kikboksing üzrə



Elçin Eminov hazırlayıblar.

Yeri gəlmişkən, ***Bakı şəhər BPİ DYP İdarəsinə bilavasitə tabe olan YPX Alayının Qərargahının fiziki hazırlıq üzrə baş inspektoru, polis polkovnik-leytenantı Emil Rzayev*** övladının beynəlxalq yarışda ölkəmizi təmsil etməsi üçün göstərdiyi dəstəyə görə Bakı şəhər DYPİ-nin və İdman Cəmiyyətinin rəhbərliyinə minnətdarlığını ifadə edir.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# QƏLƏBƏDƏN QƏLƏBƏYƏ

**Ümummilli lider Heydər Əliyev deyirdi ki, hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir.**

**Bu gün Azərbaycan gəncliyinin səsi-sədası dünyanın ən mötəbər tribunalarından gəlir. XXI əsrin möcüzəsi kimi tarixə düşən 44 günlük Vətən savaşında da Azərbaycan gəncliyi ən böyük qəhrəmanlıqlara imza atıb ərazi bütövlüyümüzü bərpa etdi.**




Bir sözlə, gəncliyin hərəkətverici qüvvə olması bütün sahələrdə özünü büruzə verir. Elə bugünlərdə kikboksing üzrə milli yığmamızın Vətənə medallarla dönməsi bunun bariz nümunəsidir.

Belə ki, AKF Gənclər və Yeniyetmələrdən ibarət Milli Komandamız əməkdar məşqçi Hikmət Hacıyevin rəhbərliyi altında noyabrın 6-dan 13-dək Monteneqronun Budva şəhərində keçirilən WAKO Avropa Birinciliyində iştirak edib, qüvvələrini sınayıblar. Ölkəmizi təmsil edən 25 idmançıdan 17-si Vətənə medallarla qayıdıb. Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin 9 yetirməsindən 8-i qaliblər sırasında yer alıb. Onlar 2 qızıl, 1 gümüş, 5 bürünc medala sahib olublar. Göstərilən yüksək nəticəyə görə millimizin baş məşqçisi, Baş Mühafizə İdarəsinin əməkdaşı, polis baş serjantı Hikmət Hacıyev WAKO Avropa Federasiyasının prezidenti İstvan Kiraly tərəfindən təltif olunub.

"Polis" qəzeti olaraq DİN İdman Cəmiyyətinin yetirmələrini təbrik edir, qələbələrinin davamlı olmasını diləyirik.

*Ruhiyyə Əliyeva,*
*polis baş leytenantı*

# Cinayət cəzasız qalmır

## Quldurluq və oğurluq edənlər saxlanılıb




**Abşeron RPİ Mehdiabad Polis Bölməsi əməkdaşları tərəfindən uğurlu əməliyyat həyata keçirilib.**

Daxil olmuş məlumat əsasında keçirilən təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğunun anbarından 23 min manat dəyərində elektrik, məişət əşyalarını oğurlamaqda, o cümlədən oradakı inventarı yararsız hala salaraq 8 min manat maddi ziyan vurmaqda şübhəli bilinən, əvvəllər oğurluq, qəsdən sağlamlığa ağır zərərvurma, habelə narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuşlar - Gülməmməd Əliyev və Qasım Qasımov saxlanılıblar.

Toplanmış istintaq sübutlarına əsasən müəyyən edilib ki, həmkəndlilər Qoruğun anbarının pəncərəsinin dəmir barmaqlıqlarını özləri ilə gətirdikləri linglə sındıraraq dövlət əmlakını gizli talayıblar.

Faktla bağlı Abşeron RPİ İstintaq Şöbəsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

Daha bir uğurlu əməliyyat **Rayon Polis İdarəsinin Qobu Polis Bölməsi** əməkdaşları tərəfindən keçirilib. Rayon ərazisində baş vermiş quldurluq hadisəsinin üstü "isti izlər"lə açılıb.

Daxil olmuş məlumat əsasında Oktay Həsənova qarşı quldurluq əməlini törətməkdə şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş Elbrus Məhərrəmli saxlanılıb.

Araşdırma zamanı müəyyən olunub ki, Elbrus özgənin əmlakını ələ keçirmək məqsədilə gecə saat 02:00 radələrində "Neftçilər" metrostansiyasının yanında taksi kimi fəaliyyət göstərən "Chevrolet" markalı avtomobilə əyləşərək sürücüdən onu Hökməli qəsəbəsinə aparmasını istəyib. Qəsəbəyə çatdıqda düşmək istədiyini bildirən M.Elbrus sürücünün baş nahiyəsinə küt alətlə xəsarət yetirərək onun 700 manat dəyərində olan mobil telefonunu götürüb hadisə yerindən uzaqlaşıb.

Əvvəlcə törətdiyi əməli etiraf etmək istəməyən Elbrus istintaqçıların ona təqdim etdiyi tutarlı dəlil-sübutlar qarşısında aciz qalıb.

Yeri gəlmişkən, ***Abşeron RPİ tərəfindən cari ilin on ayı ərzində 22 kq 031 qram narkotik vasitə - onlardan 10 kiloqram 907 qram heroin, 11 kiloqram 116 qram marixuana, 6,4 qram tiryək, 2 kiloqram 546 qram metamfetamin qanunsuz dövriyyədən çıxarılıb, eləcə də yaş çəkisi 62 kiloqram olan 217 ədəd çətənə kolu aşkar edilərək götürülüb. Həmçinin, 3-ü əməliyyat yolu ilə olmaqla 4 ədəd odlu silah aidiyyəti üzrə təhvil verilib. Bundan başqa, 2020-2021-ci illərin yanvar-oktyabr aylarında cinayətkarlığın vəziyyətinə dair 1328 fakt qeydə alınıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,1 faiz aşağıdır.***

*Teymur Əlizadə,*
*polis mayoru*




**Sumqayıt ŞPİ-nin 2-ci Polis Bölməsinə** H.Z.Tağıyev qəsəbəsi ərazisində yerləşən "Sumqayıt Superfosfat" zavodunun ərazisindən 200 kiloqram çəkidə metal qırıntılarının oğurlanması barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən şəhər sakini A.Həsənov, Abşeron rayon sakinləri T.Mikayılov və C.Əhmədov müəyyən edilərək saxlanılmışlar.

◆◆◆

**Xətai RPİ-nin 37-ci Polis Şöbəsinə** noyabrın 12-də rayon ərazisində yerləşən "Azintes" MMC-yə məxsus alüminium zavodundan 20 min manat dəyərində laboratoriya avadanlıqlarının oğurlanması barədə məlumat daxil olmuşdur.

Polis əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluq əməlini törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər də oğurluğa görə məhkum olunmuş R.Həsənov müəyyən edilərək saxlanılmışdır.

◆◆◆

**Suraxanı RPİ-nin 30-cu Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Hövsan qəsəbəsi ərazisindəki yerüstü piyada keçidinin pəncərələrini və çərçivə dayaqlarını, həmçinin rayon ərazisindəki bir evdən 2560 manat dəyərində inşaat materialları oğurlamaqda şübhəli bilinən Ağsu rayon sakini R.Məmmədov saxlanılmışdır. Şəxsi axtarış zamanı ondan heroin aşkar edilərək götürülmüşdür.

◆◆◆

**Qazax Rayon Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində noyabrın 11-də Dəmirçilər kəndi ərazisində yerləşən köhnə dəmir yolu relslərini kəsərək oğurlamağa cəhd göstərən rayon sakinləri S.Məmmədov, M.Kosayev, Q.Hadiyev və Goranboy rayon sakini M.Musayev saxlanılmışlar. Ətraflarında aparılan tədbirlərlə onların Cəfərli kəndi ərazisindən Ağstafa dəmir yolu təmiri sahəsinə məxsus 175 metr relsi oğurlamaları və 425 metr relsi oğurlamağa cəhd göstərmələri də müəyyən edilmişdir.

◆◆◆

**Cəlilabad RPŞ** əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaqda şübhəli bilinən Bakı şəhər sakinləri R.Camalov, Ə.Osmanov və G.Nuriyeva saxlanılmışlar. Şəxsi axtarış zamanı R.Camalovdan heroin və metamfetamin, Ə.Osmanovun idarə etdiyi "Toyota" markalı avtomobildən isə 566 qramdan artıq heroin, 31 qramdan artıq metamfetamin, marixuana və 11 ədəd preqabalin həbləri aşkar edilərək götürülmüşdür.

# Koronavirus xəstələri saxlanılıb




Karantin rejimi tələblərinin təmin edilməsi, koronavirus infeksiyanın ölkə ərazisində yayılmasının və törədə biləcəyi ağır fəsadların qarşısının alınması məqsədilə daxili işlər orqanlarının əməkdaşları paytaxt ərazisində, eləcə də bölgələrdə nəzarət–profilaktik tədbirləri davam etdirirlər.

Noyabrın 10-dan 16-dək olan müddətdə polis əməkdaşları tərəfindən respublika ərazisində 20 nəfər aktiv koronavirus xəstəsi ictimai yerlərdə aşkar edilərək saxlanılıb. İzahedici söhbətlər aparıldıqdan sonra tibbi prosedurlar gözlənilməklə onlar yaşadıqları ünvanlara qaytarılıb və bu barədə müvafiq səhiyyə qurumları məlumatlandırılıb.

Ev şəraitində müalicə təyin edilməsinə baxmayaraq, yaşayış yerini tərk edən 2 nəfər barəsində Cinayət Məcəlləsinin 139-1 (Epidemiya əleyhinə və karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanılıb.

*Natiq Cavadov*

## Noyabr ayının 10-dan 16-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən 294 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 58 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 451, o cümlədən borclu şəxs qismində axtarışda olan 356 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 yol-nəqliyyat hadisəsi baş vermiş, nəticədə 14 nəfər ölmüş, 13 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 137 fakt müəyyən edilmişdir.

POLİS
qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10020
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:30
Qiyməti 40 qəpik